# Kar uşaqlarda psixi inkişafın spesifik xüsusiyyətləri

**Nərgiz Qibləliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** nərgizqibləliyeva@mail.ru

**Rəyçilər:** filol. ü.f.d., dos.T.H. Ağayeva,
ped.ü.f.d., dos.S.R. Aslanova

**Açar sözlər:** kar uşaqlar, eşitmə qüsuru, əqli inkişaf, intellekt, psixi inkişaf, korreksiya
**Ключевые слова:** глухие дети, нарушение слуха, познавательное развитие, интеллект, психическое развития, коррекция
**Key word:** deaf children, hearing impairment, cognitive development, intellect, psychological development, correction

Normal inkişaf etmiş uşaqlarda olduğu kimi, xüsusi qayğıya ehtiyacı olan və eləcə də eşitmə qüsurlu uşaqların da psixi inkişafının əsasında müəyyən qanunauyğunluqlar durur. Uşaqda eşitmənin itirilmə dərəcəsi təbii olaraq onların dünyagörüşündə, şəxsiyyətində özünəməxsus fərqliklər yaradır. Belə ki, uşaqlarda eşitmə qüsuru ilə əlaqədar olaraq müəyyən sahələrdə gecikmələr, məsələn, nitqin ləngiməsi, kommunikativ baryerlər, dünyagörüşünün inkişafındakı fərqliliklər, eləcə də dezadaptasiya problemləri. özünü göstərir.

Tədqiqatlar göstərir ki, kar uşaqların təxminən 40%-də bu və ya digər dərəcədə eşitmə qalıqları vardır. Bəzən eşitmə qalığı təlim prosesində istifadə edilə biləcək qədər olur. Qeyd edək ki, uzunmüddətli məşq və təlim prosesində kar uşaqlarda eşitmə qalığının funksiyası aktivləşdirmək mümkündür. Bu zaman eşitmə funksiyasının yaxşılaşması eşitmə aparatının anatomik-fizioloji mexanizmlərinin bərpası ilə deyil, uşaqda eşitmə qalığının aktivləşdirilməsi və vərdişlərin əldə olunması yolu ilə baş verir. Karlarda eşitmə hissinin və qavrayışının itirilməsi ilə əlaqədar görmə hissi və görmə qavrayışı xüsusi rol oynayır. Kar uşağın görmə analizatoru aparıcı olaraq nitqin yaranmasında və ətraf aləmin qavranılmasında önəmli yer tutur. Kar uşaqların görmə hissiyyatı və görmə qavrayışı normal eşidən uşaqlardan nəinki fərqlənmir, hətta bir sıra hallarda daha yaxşı inkişaf etmiş olur. Kar uşaqlar bir çox hallarda normal eşidən uşaqların diqqət etmədiyi xüsusi kiçik detalları və incəlikləri sezirlər. Normal eşidən uşaqlar karlardan fərqli olaraq bir sıra rəng fonlarını (məsələn, göy, bənövşəyi, qırmızı, narıncı) çox zaman qarışdırırlar. Kar uşaqlar isə əksinə, rəng fonlarını daha dəqiq diferensiasiya edirlər. Kar uşaqların çəkdiyi şəkillərdə normal eşidən yaşıdlarından fərqli olaraq kiçik detallara daha çox rast gəlinir, həmçinin onların hafizədən çəkdikləri şəkillər də daha dolğun olur.

Qeyd etməliyik ki, kar uşaqlar məkan qavrayışı ilə əlaqədar şəkillərin çəkilməsində çətinlik çəkirlər. Karlarda qavrayışın analitik tipi sintetik tipdən üstünlük təşkil edir. Kar insan danışan adamın nitqini özünün göz qavrayışına əsaslanaraq qavraya bilər. Məlumdur ki, dilimizin hər bir fonemi müəyyən artikulyar obraza uyğundur. Kar uşaq məhz bu obrazları görmə ilə qavrayır və yadda saxlayır. Uzun müddətli təlim prosesində kar uşaq bütöv sözlərin artikulyar obrazlarını gözü ilə fərqləndirə bilər.

Karların qavrama prosesində görmə hisslərindən başqa, həmçinin toxunma və hərəki hisslərdə vacib rol oynayır. İnsanın hərəkət və eşitmə analizatorları arasında sıx əlaqə vardır. Bu əlaqə eşitmə analizatoru zədələnərkən daha çox təzahür edir.Kar uşaqlarda eşitmənin

itirilməsi nəinki artikulyar aparatın, həmçinin tənəffüs aparatının da hissiyatına mənfi təsir edir.

Bir çox surdopedaqoqlar: V.İ.Flere, N.M.Laqovski, F.A.Rau və b-rı kar uşaqların hərəki hissiyatının xüsusiyyətlərinə xüsusilə fikir verirdilər. Onlar karların hərəkətlərindəki bəzi diskoordinasiyaları vestibulyar aparatın, həmçinin hərəki analizatorunun sinir sonluqlarının zədələnməsi ilə izah edirdilər. İ.M.Soloyovun fikrincə isə, kar uşaqların hərəkətlərindəki bəzi diskoordinasiyalar məhz, hərəkətlərin yerinə yetirilməsi zamanı eşitmə nəzarətinin olmaması ilə əlaqəlidir. Bəlkə də, buna görə kar uşaqlar bir sıra idman və əmək vərdişləri əldə etməkdə çətinlik çəkirlər. Hərəki hisslər kar uşaqların şifahi nitqə yiyələnməsində də vacib rol oynayır. Sağlam uşaq hər hansı bir səsin səhv tələffüzü zamanı eşitmə nəzarətindən istifadə edə bildiyi halda, kar uşaq artikulyar aparatın hərəkətlərindən əldə edə biləcəyi kinestetik hisslərə əsaslana bilər. Karlar üçün hərəki hisslər özünə nəzarət vasitəsidir ki, onun da əsasında nitq, o cümlədən onun şifahi, daktil, mimik formaları formalaşır.

Toxunma hissləri (daktil, temperatur, hərəki) kiçik yaşlı kar uşaqlarda pis inkişaf edir. Onlar qorunub saxlanılmış bu analizatordan kiçik yaş dövründə çox yaxşı istifadə edə bilmirlər. Kar uşaqlar hər hansı yeni predmetə toxunarkən əllərindən tam şəkildə deyil, sadəcə barmaq uclarından istifadə edirlər. Bu uşaqlarda eşitmə analizatorunun tam sönmüş olduğu zaman daktil vibrasiya hissiyatı itiləşir. Belə ki, eşitmə və daktil-vibrasiya hissiyatı bir-biri ilə tərsmütənasib əlaqədədir.

Diqqət-şüurun müəyyən obyekt üzərinə yönəlməsi və mərkəzləşməsindən ibarət psixi hadisədir. Karların görmə analizatoru demək olar ki, bütün qıcıqları öz üzərinə qəbul edir. Məktəbəqədər yaşlı kar uşaqlarda diqqətin davamlılığı 3-4 yaşında 10-12 dəqiqə, 5-6 yaşında isə 40 dəqiqəyədək olur. Karlar üçün vegetativ sistemin qeyri stabilliyi, motorikanın pozulması, emosional sferanın labilliyi xarakterikdir.

Eşitmə qüsurlu uşaqlarda ətraf aləmlə normal ünsiyyət qurmaq qabiliyyətləri pozul-duğu üçün onlar tərəfindən sosial təcrübənin qavranılması və iradi fəaliyyət xeyli çətinləşir. İradi və qeyri iradi yadda saxlama məktəbəqədər yaşlı kar uşaqlarda sağlam yaşıdları ilə müqayisədə çox da geri qalmır. Çünki əyani materialı kar uşaqlar məhz onlarda güclü inkişaf etmiş göz yaddaşı sayəsində daha yaxşı yadda saxlayır. Kar uşaqlarda iradi və qeyri iradi yadda saxlamanın bir sıra xüsusiyyətləri var. Belə ki, onlar oxşar predmetləri yadda saxlamaq üçün müqayisə edə bilmirlər. İradi yadda saxlama zamanı onlar rasional məntiqi üsullardan istifadə edə bilərlər. Karlar üçün obyektləri hissə-hissə gördükdə qavramaq daha çətin olur, nəinki hər hansısa fiquru tam halda gördükdə.

Kar uşaqlar tərəfindən məcazi mənaların, simvolik ifadələrin çətin başa düşülməsi onlarda təxəyyülün lazımi səviyyədə inkişaf etmədiyindən xəbər verir. Müəllim və tərbiyəçilərin müşahidələrinə əsasən, kar uşaqlar oxunulan nağıllardakı surətlərdə, şəkillərdəki eyni adlı personajları bir-birinə uyğunlaşdıra bilmirlər. Bu da onların təxəyyüllərinin zəif inkişafı ilə əlaqədardır.

Məlumdur ki, insan təfəkkürü bilavasitə nitqlə əlaqədardır və nitqsiz inkişaf edə bilməz. Məhz buna görə kar uşaqlarda əqli fəaliyyətin inkişafında spesifik xüsusiyyətlər təzahür edir. Kar uşaqlar uzun müddət əyani-obrazlı təfəkkür səviyyəsində qalırlar, yəni onlar sözlərlə deyil obrazlar, şəkillər vasitəsilə düşünürlər. Nəzəri təfəkkürün formalaşmasında kar uşaq öz sağlam yaşıdından çox geri qalır. Bu da özünü qavrayış fəaliyyətində göstərir. Kar uşaqların təfəkkürünün inkişafında fərdi fərqlərdə aşkar olunur. Kar uşaqların ¼ hissəsində əyani təfəkkür səviyyəsi öz sağ-lam yaşıdları ilə demək olar ki, eyni səviyyədə olur. Lakin təxminən 15%-də (hər yaş qrupunda) nəzəri təfəkkür sağlam yaşıdlarına nisbətən orta səviyyəyə çatır.

Belə uşaqlar əqli geriliyi olan uşaqlar sayılmır. Onların əyani təfəkkürü kar uşaqlar üçün yaş normalarına uyğun olur. Nəzəri təfəkkürün inkişafında olan çətinlik isə nitqi qavrama ilə əlaqədardır .

Kar uşaqlarda fikri əməliyyatları: analiz və sintez, müqayisə. müqayisə olunan obyektlərdə ümumi və oxşar cəhətlərini çətin yerinə yetirirlər. Onlar daha çox fərqlər haqqında danışırlar. Çünki müqayisə zamanı diqqətlərini oxşar cəhətlərə cəlb etdikdə fərqli cəhətləri unudurlar, və ya əksinə. Bu uşaqların eyni zamanda həm oxşar, həm də fərqli cəhətləri sezə bilməməkləri ilə izah oluna bilər.

Kar və zəif eşidən uşaqlar ümumiləşdirmə qaydalarını, obyektlər arasında daxili əlaqələri qavramaqda əziyyət çəkirlər. Səbəb-nəticə əlaqələri: kar uşaqlar insanların hərəkətləri, hadisələr arasında məntiqi əlaqələr və münasibətləri çətin anlayırlar. Onlar hər hansı bir hadisənin gizli səbəblərini aşkara çıxara bilmir, hərəkətlə səbəbi, məqsədi qarışdırırlar. Onlar tez-tez səbəb-nəticə və məkan-zaman əlaqələrində səhv edirlər.

Məktəbəqədər yaş dövrü uşaqların psixoloji, fizioloji, əqli inkişaflarının ən çiçəklənən və mühüm dəyişikliklər baş verən dövrüdür. Bu dövrü başa çatdırıb kiçik məktəbli yaş dövrünə qədəm qoyana kimi uşaqlar iki yaş böhranı keçirirlər. Bu böhranlar uşağın üç və altı yaşlarına təsadüf edir. Məktəbəqədər yaş mərhələsi uşağın özünüdərk etməsi, özünü qiymətləndirməsi, fəaliyyət və davranışının formalaşması, şəxsiyyətin inkişafı və s. kimi bir sıra ciddi məsələləri əhatə edir. Kar uşaqlarda şəxsiyyətin inkişafı bir neçə faktlardan asılıdır: eşitmənin zədələnməsi vaxtı, eşitmənin itirilmə dərəcəsi, intellektual inkişaf səviyyəsi, ailədə münasibətlər, şəxsiyyətlərarası münasibətlərin formalaşması. Nitqin gecikməsi ilə əlaqədar kar uşaqlarda ətraf mühitlə ünsiyyət məhdudiyyəti yaranır ki, bu da onlarda və onların valideynlərində frustasiyaların meydana çıxmasına səbəb olur. Həyat planlarının müzakirəsində, şəxsi həyatlarında baş verən hadisələrin təsvirində yaranan çətinliklər sosial əlaqələrdə məhdudiyyətlərlə nəticələnir. Kar uşaqların sağlam yaşıdları ilə müqayisədə sosial yetkinlikləri aşağı olur. Ətrafdakı adamların karlara olan fərqli münasibətləri kar uşaqların şəxsiyyətinin formalaşmasında fərqli keyfiyyətlərin yaranması ilə nəticələnir. Kar uşaqda bir tərəfdən özünə qarşı məhəbbət, mərhəmət, şəfqət, digər tərəfdən özünün başqalarına yük olması hissləri yaranır. Kar uşaqlar çox zaman özləri haqda, qabiliyyət və bacarıqları haqda düzgün fikirdə olmurlar. Onlar özlərinə başqalarının fikirlərinə əsasən qiymət verirlər. Əlbəttə, özünü qiymətləndirmə kar uşaq şəxsiyyətinin formalaşmasında vacib rol oynayır. Özünüqiymətləndirmə və iddia səviyyəsinin formalaşması fərdin psixi inkişafının əsas faktoru ola bilər. İddia səviyyəsi insanın bacarıq və qabiliyyətlərindən, hər hansı bir fəaliyyət sahəsində uğurlarının adekvat qiymətləndirilməsindən asılıdır.

Sensor pozulma kar uşağın böyüklərlə ünsiyyətində problem yaratdığından o ictimai təcrübənin toplanılmasında və öz yaşıdları ilə kontaktın yaranmasında əziyyət çəkir. Nəticədə yaranmış psixoloji diskomfort ümumi emosional vəziyyətin pisləşməsinə, aktivlik səviyyəsinin zəifləməsinə səbəb olur ki, bu da bacarıq və vərdişlərin yaranmasında, özünə nəzarətdə psixoloji problemlər yaradır.

**Məqalənin aktuallığı.** Kar uşaqların sosial reabilitasiya və adaptasiyasında psixi inkişaf xüsusiyyətlərinin öyrənilməsinin rolu böyükdür. Erkən yaşlarda kar uşaqların psixi inkişaf çatışmazlıqlarının aşkarlanması və diaqnozlaşdırılması düzgün təlim-tərbiyə, korreksiya işini təşkil etməyə imkan verir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə İlk dəfə olaraq emosional vəziyyətlərin, duyğuların psixi inkişafın gedişinə təsiri araşdırılmışdır .

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən fikir və nəticələr eşitmə

qüsurlu uşaqlarla işləyən mütəxəssis və valideynlərin təlim-tərbiyə, korreksiya işində gərəkli ola bilər.

## Ədəbiyyat

1. Богданова Т. Г. Сурдопсихология М.: Академия, 2002.
2. Боскис Р.М. Глухие и слабослышащие дети М.: АПН РСФСР, 1963.
3. Речицкой Е.Г. Сурдопедагогика М.: ВЛАДОС, 2004.
4. Леонгард Э.И. Воспитание глухих дошкольников в детском саду М.: Педагогика, 1987.

**Н. Гиблалиева**

## Специфические осбенности психического развития у глухих детей

## Резюме

В статье раскрывается влияние на психологическое развитие. Для обеспечения в всестороннего развития этих детей педагоги и воспитатели должны работать над собой и необходимо создание условий для повышения потенциальных возможностей работников этой области.

**N. Qiblalieva**

## Specifically peculiarity psychological development of deaf children

## Summary

The article examines the impact of psychological development of deaf children. The ensure the full development of such children, teacher educators must work on themselves and it is necessary to create for increasing the potential of workers in this area.

**Redaksiyaya daxil olub:** 27.12.2017